*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 19-26*

https://doi.org/10.62837/2026.7.19

**MƏHBUBƏ MƏMMƏDLI**
***Azərbaycan Dillər Universiteti***

# MÜASİR İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏR: SÖZ YARADICILIĞI VƏ İSTİFADƏSİ

**Xülasə.** Məqalədə müasir ingilis dilində neologizmlərin yaranma xüsusiyyətləri və onların istifadə sahələri araşdırılır. Neologizmlərin meydana gəlməsinə təsir göstərən əsas amillər, o cümlədən texnoloji inkişaf, qloballaşma, sosial və mədəni dəyişikliklər təhlil edilir. Tədqiqatda müasir ingilis dilində yeni sözlərin formalaşmasının əsas üsulları – affiksasiya, sözbirləşdirmə, kontaminasiya (blending), abreviasiya, akronimlər, qısaltma, konversiya, desuffiksasiya və semantik dəyişmə nəzərdən keçirilir. Müxtəlif neologizmlərin struktur-semantik xüsusiyyətləri konkret nümunələr əsasında şərh olunur. Araşdırma göstərir ki, neologizmlər müasir cəmiyyətin sosial, iqtisadi və texnoloji inkişafını əks etdirən mühüm dil vahidləridir. Müəyyən edilmişdir ki, sözbirləşdirmə və kontaminasiya müasir ingilis dilində ən məhsuldar söz yaradıcılığı üsullarından hesab olunur.

**Açar sözlər:** neologizm, müasir ingilis dili, söz yaradıcılığı, affiksasiya, sözbirləşdirmə, kontaminasiya, konversiya, abreviasiya, semantik dəyişmə.

Müasir ingilis dilində yeni sözlərin yaranmasının iki əsas strategiyası mövcuddur: digər dillərdən alınmalar və yeni sözlərin yaradılması, yəni sözyaratma prosesi [17, s. 25]. Sözyaratma isə "...adətən dildə artıq mövcud olan eyniköklü sözlər əsasında, dilin mövcud nümunə və modellərinə uyğun olaraq affiksasiya, sözbirləşdirmə (kompozisiya), konversiya və digər formal vasitələrdən istifadə etməklə törəmə və mürəkkəb sözlərin yaradılması prosesi..." kimi müəyyən edilir [2, s. 467].

Müasir ingilis dili xüsusilə internet və rəqəmsal texnologiyaların təsiri altında ən çox neologizm yaradan dillərdən biri hesab olunur. *"Selfie", "podcast", "doomscrolling", "metaverse", "infodemic"* kimi sözlər qısa müddətdə gündəlik istifadəyə daxil olmuş və lüğətlərdə yer almışdır. Neologizmlərin yaranması dilin dinamik xarakterini və kommunikativ ehtiyaclara uyğunlaşma qabiliyyətini göstərir. J. Algeo-ya görə, neologizmlər dilə yeni daxil olmuş söz və ifadələrdir və onların bir hissəsi sonradan ümumi dil fonduna daxil olur [5, s. 1-4].

Bu məqalə çərçivəsində ingilis dilində aşağıdakı sözyaratma üsullarının nəzərdən keçirilməsi məqsədəuyğun hesab olunur: affiksasiya, sözbirləşdirmə (kompozisiya), abreviasiya (qısaltma), onomatopeya (səstəlqidi sözlərin yaranması), desuffiksasiya və s.

**Müasir ingilis dilində neologizmlərin yaranma səbəbləri**. Neologizmlərin yaranmasına təsir edən əsas amillər aşağıdakılardır:

a) texnologiyanın inkişafı. Rəqəmsal texnologiyalar yeni terminlərin yaranmasının əsas mənbəyidir. *"Cybersecurity", "cryptocurrency", "livestream", "hashtag"* kimi sözlər texnologiyanın təsiri ilə meydana çıxmışdır. İnternet mühiti yeni leksik vahidlərin sürətlə yayılmasını təmin edir. b) Sosial və mədəni dəyişikliklər. Cəmiyyətdə baş verən dəyişikliklər yeni anlayışlara ehtiyac yaradır. Məsələn, pandemiya dövründə *"social distancing", "covidiot", "infodemic"* kimi sözlər geniş istifadə olunmuşdur. Bu tip neologizmlər ictimai hadisələrin dilə birbaşa təsirini göstərir. c) Qloballaşma və dil əlaqələri. İngilis dili müxtəlif dillərlə qarşılıqlı təsirdə olduğuna görə başqa dillərdən alınma sözlər də neologizmlərin mühüm hissəsini təşkil edir. Xüsusilə yapon, fransız və texnoloji terminologiyadan alınan sözlər müasir ingilis leksikasında geniş yayılmışdır.

**Neologizmlərin söz yaradıcılığı üsulları**. Müasir ingilis dilində neologizmlər müxtəlif söz yaradıcılığı üsulları ilə formalaşır.

**Affiksasiya**. Bu üsul sözə prefiks və ya suffiks artırılması yolu ilə yeni leksik vahidlərin yaranmasını nəzərdə tutur. **Cybercrime** neologizmi prefiksin kökə əlavə edilməsi yolu ilə yaranmışdır: *cyber + crime.* Bu neologizm internet mühitində törədilən cinayətləri ifadə edir.

Affiksasiya prosesi yalnız prefiks vasitəsilə deyil, həm də suffiksin söz kökünə artırılması yolu ilə həyata keçirilə bilər. Məsələn: *digitalize.* Son dövrlərdə *selfie,* *couplie* və *usie* kimi neologizmlərə getdikcə daha tez-tez rast gəlinir. Bu sözlərin hamısı suffiksal model əsasında formalaşmışdır: kök + suffiks (*self + ie, couple + ie, us + ie*). *-ie* suffiksi əsasən isim yaradan və adətən birhecalı sözlərə qoşulan suffiks kimi çıxış edir. Bu neologizmlərin populyarlığını texnologiyaların inkişafı ilə də əlaqələndirmək olar. Belə ki, müasir qurğuların ön kameralarının meydana çıxması və texniki imkanlarının təkmilləşdirilməsi insanlara kənar şəxslərin köməyi olmadan öz şəkillərini çəkməyə imkan vermişdir. Bu tendensiya müasir cəmiyyətdə fərdiyyətçilik və müstəqillik kimi şəxsi keyfiyyətlərə tələbatın artması ilə izah oluna bilər.

Affiksasiya ingilis dilində ən məhsuldar söz yaradıcılığı vasitələrindən biridir.

**Birləşmə** (Compounding). İki və ya daha çox sözün birləşməsi nəticəsində yeni söz yaranır [2, c. 469]: *smartphone, chatbot, fingerprint. Duty-free* - gömrük rüsumuna cəlb olunmayan, gömrük rüsumundan azad olan**.** Texnologiya sahəsində yaranan neologizmlərin böyük hissəsi məhz bu üsulla formalaşır. Sözlərin birləşdirilməsi/mürəkkəb sözlərin yaranması (compounding) dilin yeni sözlərlə zənginləşməsinin *ən məhsuldar* üsullarından biridir. Bu yolla yaranan sözlər adətən iki və ya daha çox müstəqil sözün birləşdirilməsi nəticəsində formalaşır. Bu üsulla yaranmış neologizmlərdən biri *Obamacare* sözüdür. Bu söz *Obama* və *care* komponentlərinin birləşməsindən əmələ gəlmişdir. Burada komponentlərdən biri xüsusi isim – ABŞ prezidenti Barak Obamanın soyadı, digəri isə *care* («qayğı», «səhiyyə xidməti») isimidir. *Obamacare* neologizmi ABŞ-da səhiyyə sisteminin

təkmilləşdirilməsi məqsədilə prezident Barak Obama tərəfindən qəbul edilmiş qanunu ifadə edir. Həmin qanun 2010-cu ilin mart ayında qəbul edilmiş və məhz bu dövr sözügedən neologizmin meydana çıxması və kütləvi informasiya vasitələrində geniş yayılması ilə xarakterizə olunur. Bundan əlavə, sözlərin birləşdirilməssi zamanı söz kökləri müəyyən dərəcədə qısaldıla da bilər. Məsələn, *cyborg* neologizmi söz köklərinin ixtisarı yolu ilə yaranmışdır. Bu halda *cybernetic* sifətinin kökü *cyber, organism* sözünün kökü isə *org* şəklinə salınaraq birləşdirilmişdir (*cybernetic* + *organism*). Bu neologizmin meydana gəlməsi tibb və texnologiya sahələrində baş verən inkişaflarla əlaqədardır. *Cyborg* termini yarı insan, yarı maşın xüsusiyyətlərinə malik varlığı ifadə edir. Mürəkkəb sözün komponentlərindən biri sadə, digəri isə törəmə söz ola bilər. Buna nümunə kimi *mumblogger* neologizmini göstərmək olar: *mum* + *blogger* (blogger = blog + -er). Bu neologizm *blog* yazma fəaliyyətinin geniş yayılması ilə əlaqədar yaranmışdır. Gənc analar da *blog* mühitinin fəal iştirakçılarına çevrildikləri üçün *mum* («ana») və *blogger* («bloqer») sözlərinin birləşməsi nəticəsində *mumblogger* sözü meydana gəlmişdir. Bu neologizmin yaranması gənc anaların ünsiyyətə olan ehtiyacı və sosial əlaqə imkanlarının məhdudluğu ilə izah edilir. Mobil rabitənin nisbətən baha olması səbəbindən bir çox insanlar internetə, xüsusilə də bloqlara üstünlük vermiş və nəticədə bu tip yeni sözlərin meydana çıxmasına şərait yaranmışdır.

**Qısaltmalar və akronimlər**. Müasir kommunikasiya sürəti qısa formalara üstünlük verilməsinə səbəb olmuşdur: *AI* (Artificial Intelligence); *FAQ; GIF*. Bu tip neologizmlər xüsusilə rəqəmsal kommunikasiya sahəsində geniş yayılmışdır. *Abreviasiya (abbreviation*) - başqa sözlərdən və ya söz birləşmələrindən yeni sözlərin (əsasən isimlərin) yaradılması üsuludur. Bununla əlaqədar olaraq rus dilçisi V. İ. Zabotkina qeyd edir ki, «qısaltmalar neologizmlərin ümumi sayında nisbətən az paya malik olsalar da, onların sayı durmadan artır. Belə ki, 1960-cı illərdə qısaltmalar bütün neologizmlərin təxminən 9%-ni təşkil edirdisə, 1970–1980-ci illərdə bu göstərici 14%-ə yüksəlmişdir» [1, s. 17].

Müasir ingilis dilində abreviasiya aşağıdakı növlərlə təmsil olunur.

1. **Kontaminasiya** (**blending**). Kontaminasiya (lat. contaminatio - «toxunma», «qarışma») iki dil vahidinin struktur oxşarlığı və ya eyniliyi, funksional və ya semantik yaxınlığı əsasında onların struktur elementlərinin nitq axınında birləşdirilməsi prosesidir [2, s. 238]. *Blendinq* (kontaminasiya və ya qarışıq söz yaradıcılığı) - iki müxtəlif sözün müəyyən hissələrinin birləşdirilməsi yolu ilə yeni sözün yaranması üsuludur. Müasir ingilis dilində ən məhsuldar söz yaradıcılığı üsullarından biri hesab olunur. Bu üsulda, adətən, birinci sözün başlanğıcı, ikinci sözün son hissəsi götürülür və yeni leksik vahid yaranır. Məsələn: *brunch* = *breakfast* + *lunch; smog* = *smoke* + *fog; netizen* = *internet* + *citizen; webinar* = *web* + *seminar*. Dilçi Laurie Bauer blendinqi "iki sözün qismən birləşməsi nəticəsində yaranan yeni söz forması" kimi izah edir [6, s. 234–236]. Dilçi İ. Plag blendinqi iki

sözün hissələrinin qarışması nəticəsində yaranan söz yaradıcılığı modeli kimi xarakterizə edir [16, s. 133-136].

2. Blendinq xüsusilə: media dilində, reklam sahəsində, texnologiyada, sosial şəbəkələrdə geniş istifadə olunur, çünki qısa, yadda qalan və ifadəli sözlər yaradır. Blendinq müasir ingilis dilində kreativ söz yaradıcılığı nümunəsi hesab olunur. Amerikalı dilçi J. Algeo kontaminasiya yolu ilə yaranan sözləri **üç** struktur qrupa ayırır [4, s. 47-64].

**a) Qismən fonetik üst-üstə düşmə ilə yaranan kontaminasiya sözləri.** Bu halda birinci mənbə-söz qısaldılır və onun saxlanılan hecası ikinci mənbə-sözün hecası ilə tam səsləşir. Bu model əsasında yaranmış sözlərdən biri *bromance* sözüdür (*brother + romance*). Söz yaxın kişi dostluğu və ya kişi dostları arasındakı xüsusi münasibəti ifadə edir. İngilis dilinin Oksford lüğətinin 3-cü nəşrində (2010) təxminən 2000 yeni söz qeydə alınmışdır. Bu sözlərdən biri olan *bromance* neologizmini daha ətraflı nəzərdən keçirək. *Bromance* sözü ilk dəfə XX əsrin 90-cı illərində ingilis dilində meydana çıxmışdır. *Big Brother Magazine* jurnalının redaktoru Dave Carnie bu termini kişi cinsindən olan şəxslər arasında mövcud olan yaxın dostluq və ya qardaşlıq münasibətlərini ifadə etmək üçün təklif etmişdir. Sonralar *bromance* neologizmi kino sənayesində geniş yayılmışdır. Belə ki, müasir kinematoqrafiyada *bromatic comedy* adlı yeni janr formalaşmışdır. Bu janr iki kişi arasında mövcud olan qeyri-seksual, lakin emosional yaxınlıq və dostluq münasibətlərindən bəhs edir. Bu qəbildən olan filmlərə *Good Will Hunting* və *Wedding Crashers* kimi Amerika filmlərini nümunə göstərmək olar. *Bromance* sözünün işlənməsinə dair nümunə: *Another factor believed to influence bromance is that men are marrying later (Bromance fenomeninin yaranmasına təsir göstərən amillərdən biri də kişilərin daha gec evlənməsidir).* Bu fakt neologizmin müasir ingilis dilində geniş yayılmasını və beynəlxalq səviyyədə tanınmasını göstərir.

**b) Qısaltma yolu ilə yaranan kontaminasiya sözləri.** Bu üsulda əvvəlcə mənbə-sözlər qısaldılır, daha sonra onların hissələri birləşdirilir. Məsələn, **deleb** sözü *dead* və *celebrity* sözlərinin birləşməsi nəticəsində yaranmışdır və «vəfat etmiş məşhur şəxs» mənasını ifadə edir.

**c) Qismən fonetik üst-üstə düşmə və qısaltmanın birləşməsi yolu ilə yaranan kontaminasiya sözləri**. Bu növün tipik nümunəsi *turducken* sözüdür. Bu söz üç sözün – *turkey* (hinduşka), *duck* (ördək) və *chicken* (toyuq) – hissələrinin birləşdirilməsi nəticəsində yaranmışdır. *Turducken* içərisinə ördək və toyuq doldurulmuş hinduşkanı ifadə edir.

**2. Qısaltma (clipping).** Qısaltma uzun sözün bir və ya bir neçə hecasının ixtisar edilməsi nəticəsində yeni sözün yaranması prosesidir. Qısaltmanın dörd əsas növü vardır: a) sözün əvvəl hissəsinin ixtisar edilməsi. Məsələn: telephone → *phone* - «telefon». b) Sözün son hissəsinin ixtisar edilməsi. Məsələn: advertisement → *ad* -

«reklam». c) Sözün həm əvvəl, həm də son hissəsinin ixtisar edilməsi. Məsələn: refrigerator → *fridge* - «soyuducu».

d) Söz birləşmələrinin qısaldılması. Məsələn: zoological garden → *zoo* - «zoopark».

**3. Akronimlər (acronyms).** Akronim ilkin söz birləşməsini təşkil edən sözlərin başlanğıc səslərindən və ya hərflərindən yaranan və bir söz kimi tələffüz olunan qısaltmadır. Məsələn: *NATO* = North Atlantic Treaty Organization - «Şimali Atlantika Müqaviləsi Təşkilatı (*NATO*)». Akronim üsulu ilə yaranmış neologizmlərə *kippers* sözünü misal göstərmək olar. Bu söz *Kids In Parents' Pockets Eroding Retirement Savings* ifadəsinin başlanğıc hərflərindən formalaşmışdır. Neologizm qeyri-rəsmi xarakter daşıyır və iqtisadi baxımdan valideynlərindən asılı olaraq onların hesabına yaşayan yetkin övladları ifadə edir. Bu termin müasir cəmiyyətdə sosial-iqtisadi münasibətlərdə baş verən dəyişiklikləri əks etdirən leksik vahidlərdən biridir.

**4. Hərfi abreviasiyalar (initialisms).** Hərfi abreviasiya söz birləşməsini təşkil edən sözlərin ilk hərflərindən yaranır və hərflər ayrı-ayrılıqda tələffüz olunur. Məsələn: *BBC* = British Broadcasting Corporation - «Britaniya Yayım Korporasiyası»; *ISBN* = International Standard Book Number - «Beynəlxalq Standart Kitab Nömrəsi».

**Onomatopeya (səstəlqidi sözlərin yaranması)**. *Vuvuzela* - uzun, plastikdən hazırlanmış üfürmə musiqi aləti və ya səs borusudur. Vuvuzela müasir ingilis dilinə Cənubi Afrika dillərindən olan zulu dilindən keçmiş alınma neologizmdir. Söz 2010 FIFA Dünya Çempionatından sonra beynəlxalq mediada geniş yayılmış və bir çox dillərin aktiv lüğət fonduna daxil olmuşdur. Turnir Cənubi Afrikada keçirildiyindən stadionlarda minlərlə azarkeş vuvuzeladan istifadə edirdi. Onun yaratdığı yüksək və davamlı səs televiziya yayımlarında da aydın eşidilirdi. *Fans blew vuvuzelas throughout the match* (Azarkeşlər oyun boyu vuvuzela çaldılar).

**Desuffiksasiya (back-formation)** söz yaradıcılığının bir növü olub, mövcud sözün tərkibindən affiksin, əsasən də suffiksin çıxarılması nəticəsində yeni leksik vahidin yaranmasını nəzərdə tutur. Məsələn, baby-sitter («uşağa baxan şəxs») isimindən *to baby-sit* («uşağa baxmaq») feli əmələ gəlmişdir. Bu prosesdə danışanlar sözü morfoloji cəhətdən təhlil edərək onu daha sadə quruluşa endirir və yeni söz formalaşdırırlar. Məsələn, *to fave* feli *favorable* sifətindən yaranmışdır. Bu neologizm hazırda əsasən qeyri-rəsmi ünsiyyətdə və internet dilində işlədilir. Digər nümunələr: *editor → edit; television → televise; burglar → burgle; donation → donate*. Bu sözlərin hamısı desuffiksasiya (back-formation) yolu ilə yaranmışdır.

**Konversiya** zamanı söz heç bir formal dəyişiklik olmadan bir nitq hissəsindən digərinə keçir. Müasir ingilis dilində isimdən feil yaranması bu prosesin ən məhsuldar modellərindən biridir. Məsələn, *to troll* feli *troll* isimindən konversiya yolu ilə yaranmışdır. Bu neologizm internet istifadəçiləri arasında qəsdən təxribat

xarakterli və ya xoşagəlməz məzmun paylaşmaq mənasını ifadə edir və rəqəmsal kommunikasiya mühitinin inkişafı nəticəsində geniş yayılmışdır. Bu neologizm qeyri-rəsmi xarakter daşıyır

**Semantik neologizmlər**. Mövcud söz yeni məna qazanır: virus, stream, friend (sosial şəbəkələrdə feil kimi işlənməsi). Bu proses dilin semantik inkişafını nümayiş etdirir. Məsələn, "*cloud*" sözü əvvəllər yalnız meteoroloji anlayışı ifadə etdiyi halda, hazırda informasiya texnologiyalarında "bulud yaddaşı" mənasında istifadə olunur.

**Neologizmlərin istifadəsi.** Müasir ingilis dilində neologizmlər əsasən aşağıdakı sahələrdə geniş istifadə olunur: sosial media; texnologiya; marketinq; siyasət; gündəlik danışıq dili; kütləvi informasiya vasitələri. Sosial şəbəkələr neologizmlərin yayılmasında xüsusi rol oynayır. Yeni sözlər əvvəlcə internet istifadəçiləri arasında meydana çıxır, daha sonra mediaya və gündəlik danışıq dilinə keçir. Bəzi neologizmlər qısa müddətli olsa da, bir qismi lüğət fonduna daxil olaraq sabitləşir. Oxford English Dictionary və digər nüfuzlu lüğətlər hər il yüzlərlə yeni sözü rəsmi şəkildə qəbul edir. Bu isə müasir ingilis dilinin açıq və çevik sistem olduğunu göstərir.

**Nəticə**. Müasir ingilis dilində neologizmlər dilin inkişafının və cəmiyyətin dəyişməsinin mühüm göstəricisidir. Texnoloji yeniliklər, sosial proseslər və qloballaşma yeni sözlərin yaranmasını sürətləndirir. Müasir ingilis dilində yeni sözlərin yaranması prosesi ilə bağlı geniş nəzəri və praktik materialın təhlili əsasında aşağıdakı nəticələrə gəlmək olar:

1. Sözbirləşdirmə (compounding) müasir ingilis dilində yeni sözlərin yaradılmasının ən səciyyəvi və məhsuldar üsullarından biridir.

2. Son dövrlərdə müasir ingilis dilində kontaminasiya (blending) üsulundan istifadənin getdikcə daha geniş yayıldığı müşahidə olunur.

3. İngilis dilinin Oksford lüğətinə və Merriam-Webster's Collegiate Dictionary lüğətinin 11-ci nəşrinə (2009) daxil edilmiş neologizmlər iqtisadiyyat, siyasət, mədəniyyət və kütləvi informasiya vasitələri sahələrində cəmiyyətin müasir vəziyyətini əks etdirir.

4. Xarici mənşəli neologizmlərdən istifadə zamanı onların yalnız mənasını və mənşəyini deyil, həm də ilkin sözün struktur xüsusiyyətlərini nəzərə almaq vacibdir. Bu yanaşma həmin leksik vahidlərin semantik və morfoloji xüsusiyyətlərini daha düzgün anlamağa imkan verir..

Dilçilik baxımından neologizmlərin öyrənilməsi yalnız yeni sözlərin araşdırılması deyil, həm də cəmiyyətin inkişaf istiqamətlərinin təhlili deməkdir. Müasir dövrdə xüsusilə rəqəmsal kommunikasiya və sosial media neologizmlərin yaranması və yayılmasında əsas rol oynayır.

## Ədəbiyyat

1. Заботкина В.И. Новая лексика современного английского языка. - Москва: Высшая школа, 1989. – 126с.

2. Лингвистический энциклопедический словарь. – Москва: Соетская Энциклопедия, 1990. -685с.
3. Ahmad, K. Neologisms, Nonces and Word Formation // Proceedings of the Ninth EURALEX International Congress. Stuttgart: EURALEX, 2000. – P. 711–730.
4. Algeo, J. Blends: A Structural and Systematic View // American Speech. – 1977. – Vol. 52, No. 1–2. – P. 47–64.
5. Algeo, J. Fifty Years among the New Words: A Dictionary of Neologisms, 1941–1991. – Cambridge: Cambridge University Press, 1991. – 257 p.
6. Bauer, L. English Word-Formation. – Cambridge: Cambridge University Press, 1983. – XIII + 311 p.
7. Brinton, L. J., Brinton, D. M. The Linguistic Structure of Modern English. – Amsterdam; Philadelphia: John Benjamins Publishing Company, 2010. – 460 p.
8. Bromance // Wikipedia: The Free Encyclopedia. – URL: https://en.wikipedia.org/wiki/Bromance.
9. Durkin, P. Borrowed Words: A History of Loanwords in English. – Oxford: Oxford University Press, 2014. – 512 p.
10. Fang, Y. Q. A Glimpse at the Study of English Neologism // Proceedings of the 2021 International Conference on Language and Linguistics. – 2021. – P. 45–52.
11. Fischer, R. Lexical Change in Present-Day English: A Corpus-Based Study of the Motivation, Institutionalization and Productivity of Creative Neologisms. – Tübingen: Gunter Narr Verlag, 1998. – 210 p.
12. Katamba, F. English Words: Structure, History, Usage. – 2nd ed. – London; New York: Routledge, 2005. – 239 p.
13. Neologism // Wikipedia: The Free Encyclopedia. – URL: https://en.wikipedia.org/wiki/Neologism .
14. New Words in Merriam-Webster Dictionary. – URL: https://www.merriam-webster.com/words-at-play.
15. Oxford English Dictionary. – Oxford: Oxford University Press, 2010–. – URL: https://www.oed.com
16. Plag, I. Word-Formation in English. – 2nd ed. – Cambridge: Cambridge University Press, 2018. – 240 p.
17. Schendl, H. Historical Linguistics. – Oxford: Oxford University Press, 2001. – 276 p.
18. Shi, A. An Analysis of Word-Formation Processes in Neologisms // Lexikos. – 2025. – Vol. 35. – P. 1–15.
19. Types of Neologisms and Their Classification in Linguistics // Science and Technology Journal. – 2025. – Vol. 4, No. 2. – P. 25–31.

## НЕОЛОГИЗМЫ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ: СЛОВООБРАЗОВАНИЕ И УПОТРЕБЛЕНИЕ

**Резюме**

В статье рассматриваются особенности образования неологизмов в современном английском языке и сферы их употребления. Анализируются основные факторы, влияющие на появление новых слов, включая развитие технологий, глобализацию, социальные и культурные изменения. Особое внимание уделяется основным способам словообразования, таким как аффиксация, словосложение, контаминация (blending), аббревация, акронимия, усечение, конверсия, дессуффиксация и семантическое переосмысление. Структурно-семантические особенности неологизмов раскрываются на конкретных примерах. Результаты исследования показывают, что неологизмы являются важным отражением социальных, экономических и технологических процессов современного общества. Установлено, что словосложение и контаминация относятся к наиболее продуктивным способам образования новых слов в современном английском языке.

**Ключевые слова**: неологизм, современный английский язык, словообразование, аффиксация, словосложение, контаминация, конверсия, аббревация, семантическое изменение.

**MAHBUBA MAMMADLI**

## NEOLOGISMS IN MODERN ENGLISH: WORD FORMATION AND USAGE

**Abstract**

The article examines the peculiarities of neologism formation and their usage in modern English. The main factors influencing the emergence of new lexical units, including technological development, globalization, and socio-cultural changes, are analyzed. Special attention is paid to the principal word-formation processes such as affixation, compounding, blending, abbreviation, acronyms, clipping, conversion, back-formation, and semantic change. The structural and semantic characteristics of neologisms are illustrated through specific examples. The study demonstrates that neologisms serve as important indicators of social, economic, and technological developments in contemporary society. The findings reveal that compounding and blending are among the most productive word-formation processes in modern English.

**Keywords**: neologism, modern English, word formation, affixation, compounding, blending, conversion, abbreviation, semantic change.

**Rəyçi**: filologiya üzrə fəlsəfə doktoru, dosent Səbinə Süleymanova